# Qarabağın erməni sakinləri dövlətimizin himayəsindədir



Azərbaycanın dövlət strukturlarının Xankəndidə fəaliyyətə başlaması dövlətimizin baş verən hadisələrə çevik yanaşmasının göstəricisidir.

Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və digər qurumların əməkdaşlarının Qarabağda işə başlaması həm də bölgədə yaşayan erməni sakinlərin cəmiyyətimizə dayanıqlı reinteqrasiyasının təmin edilməsinə hesablanıb. Bu kimi tədbirlərin həyata keçirilməsi sübut edir ki, Azərbaycan Qarabağda yaşayan erməniəsilli sakinlərin dövlətimizin himayəsindən istifadə etmələri üçün lazım olan bütün şəraiti yaradır.

Milli Məclisin deputatı Elman Nəsirov qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələrinin 19-20 sentyabr tarixdə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri uğurla yekunlaşdıqdan sonra Qarabağ iqtisadi rayonunda suverenliyimiz tam təmin edilib: "Yeni reallıqda hədəflərimizdən biri Qarabağda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyasıdır. Bu məsələ ilə bağlı Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi var. Bu proses bizim daxili işimizdir, Azərbaycan Qarabağda yaşayan ermənilərin hüquqlarının və təhlükəsizliyinin qorunmasına tam zəmanət verib. Onların siyasi, iqtisadi, humanitar, dini, mədəni, seçki və digər bütün hüquqları təmin olunacaq. Vətəndaşlığımızı qəbul edərək bizim suveren ərazilərimizdə yaşayan ermənilər Azərbaycan vətəndaşları ilə eyni hüquq və öhdəliklərin daşıyıcılarına çevriləcəklər. Bu istiqamətdə artıq müvafiq addımlar atılmaqdadır".

Deputat söyləyib ki, Xankəndidə siyasi, iqtisadi, humanitar və digər məsələlərin tənzimlənməsi ilə bağlı müvafiq işçi qrupu yaradılıb və öz işlərini həyata keçirməyə başlayıb.

Dövlət qurumlarının Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərməyə başlaması bizim yenilməz gücümüzdən xəbər verir: "Qarabağda dövlət başçısının nümayəndəsi də öz vəzifəsini həyata keçirir və indi tam əminliklə demək olar ki, qısa zaman ərzində orada yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası prosesi həyata keçiriləcək. Bu məqsədlə Miqrasiya Xidmətinin müvafiq portalı da fəaliyyət göstərir. Yəni Azərbaycan vətəndaşlığını qəbul etmək üçün bizim ərazilərimizdə yaşayan ermənilər onlayn qaydada qeydiyyatdan keçə bilərlər. Bu prosesin sürətli, dinamik şəkildə reallaşdırılması üçün bütün imkanlar yaradılıb".

Deputat əlavə edib ki, dövlət orqanları əməkdaşlarının Xankəndidə fəaliyyəti orada yaşayan erməni sakinlərin yerli cəmiyyətə reinteqrasiyasının daha sürətli həyata keçirilməsinə səbəb olacaq. Görülən işlər həmçinin onların sosial-humanitar ehtiyaclarının qarşılanmasında səmərəliliyin artmasına da imkan yaradacaq.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 4 oktyabr.- S.6.